azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

№ 01 (41) ● Yanvar 2016-cı il   w w w . a z e r s u . a z   Qaynar xətt - 955

“Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir”

*İlham Əliyev*

# Bütün şəhərlərdə əhaliyə 24 saat fasiləsiz, təmiz içməli su verilməlidir




*səh. 4-5*

## Ölkədə iqtisadi fəallıq artacaq, əhalinin sosial müdafiəsi təmin ediləcək



*səh. 3*

## “Azərsu” ASC-nin 2015-ci il üzrə fəaliyyətinin yekunlarına həsr olunmuş iclas keçirilmişdir



*səh. 6-9*

## Gəncə şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi üzrə tender elan olunmuşdur



*səh. 11*

# 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclas keçirilmişdir



*Yanvarın 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.*

2015-ci ildə Azərbaycanın uğurla inkişaf etdiyini, qarşıda duran vəzifələrin icra olunduğunu deyən Prezident İlham Əliyev ölkəmizin bundan sonra da regionda sabitləşdirici rol oynayacağını diqqətə çatdırmışdır. 2015-ci ildə neftin qiymətinin düşməsinin və manatın devalvasiyaya uğramasının Azərbaycanda iqtisadi proseslərə də təsir etdiyini qeyd edən dövlət başçısı bunun səbəbinin kənarda yarandığını, neftin qiymətinin azalmasının iqtisadi yox, siyasi amillərlə bağlı olduğunu bildirmişdir.

Bütün sosial proqramların, o cümlədən sosial infrastruktur layihələrinin icra olunduğunu, yeni iş yerlərinin açılması və regionların inkişafı ilə bağlı tədbirlərin görüldüyünü bildirən Prezident İlham Əliyev 2015-ci ildə Azərbaycan əhalisinin 114 min nəfər artdığını vurğulamışdır.

TANAP layihəsinin əhəmiyyətinə toxunan dövlət başçısı daha sonra 2015-ci ildə ilk dəfə keçirilən birinci Avropa Oyunlarının bütün dünyada Azərbaycanı tanıtdığını, ölkədə müasir idman, nəqliyyat və xidmət infrastrukturunun yaradıldığını bildirmişdir. Prezident İlham Əliyev parlament seçkilərinin də şəffaf və demokratik şəkildə baş tutduğunu, xalqımızın iradəsini nümayiş etdirdiyini diqqətə çatdırmışdır.

Sonra maliyyə naziri Samir Şərifov, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, kənd təsərrüfatı naziri Heydər Əsədov 2015-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etmişlər.

Yekun nitqində Prezident İlham Əliyev 2016-cı ildə qeyri-neft sektorunun inkişafının prioritet olacağını, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı tədbirlərin görüləcəyini bildirmişdir. Prezident Dövlət Neft Fondunun vəsaitlərinin qorunması, fonddan dövlət büdcəsinə transferlərin azaldılması, vergi bazasının genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi və ixrac-idxal əməliyyatlarında şəffaflığın təmin olunması, maliyyə nəzarətinin gücləndirilməsi ilə bağlı tapşırıqlarını vermişdir. Bununla yanaşı, dövlət başçısı biznes mühitinin yaxşılaşdırılması, nağdsız ödəmələrin artırılması, fiskal təşviq mexanizmlərinin genişləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsinin davam etdirilməsi, bank sektorunda islahatların aparılması, özəl bankların ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsi ilə bağlı fikirlərini çatdırmışdır.

Prezident İlham Əliyev manatın məzənnəsindən danışarkən bildirmişdir ki, son vaxtlar müşahidə olunan qiymət artımı yerli məhsullara şamil edilməməlidir.

2016-cı ildə pensiya və əmək haqlarının qaldırılması ilə bağlı hökumətə təkliflər hazırlamağı tapşıran dövlət başçısı kənd təsərrüfatında islahatların genişləndirilməsi, meliorasiya tədbirlərinin davam etdirilməsi, əhalinin su, qaz və elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması, regionlarda sənaye zonalarının yaradılmasının sürətləndirilməsi, dotasiya ilə yaşayan rayonların iqtisadi səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlar vermişdir.

2016-cı ildə struktur islahatlarının aparılacağını, çevik idarəetmə mexanizmlərinin yaradılacağını və bununla bağlı yaxın vaxtlarda addımların atılacağını deyən Prezident İlham Əliyev informasiya-kommunikasiya texnologiyalarının inkişafı və bu sektorda şəffaflığın təmin edilməsinin vacibliyindən danışmış, turizm və nəqliyyat sektorunun inkişafının diqqət mərkəzində saxlanılacağını vurğulamışdır.

Dövlət başçısı tikinti sahəsində açıq tenderlərin keçirilməsi, bu sahədə də şəffaflığın təmin olunması, üstünlüyün daha çox yerli şirkətlərə verilməsi, paytaxt nəqliyyatının vahid sistemə keçidinin sürətləndirilməsi, ekoloji məsələlərin həlli, yeni "ASAN xidmət" mərkəzlərinin açılması və ona yeni səlahiyyətlərin verilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Çıxışının sonunda Prezident İlham Əliyev 2016-cı ildə Bakıda bir neçə mötəbər tədbirin, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçiriləcəyini bildirmiş, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmişdir.

***Yanvarın 18-də Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirmişdir. Dövlət başçısı bildirmişdir ki, 2015-ci ildə dünyada neftin qiymətinin kəskin düşməsi nəticəsində neft ixrac edən ölkələr çətinliklərlə üzləşib və bu proses indi də davam edir.***



Son bir ildə neftin qiymətinin 4 dəfə düşdüyünü və bunun gəlirlərin azalmasına təsir etdiyini deyən dövlət başçısı hazırda Azərbaycanın vəziyyətdən çıxmaq üçün addımlar atdığını, digər neft ölkələri ilə müqayisədə ən az itki ilə üzləşdiyini diqqətə çatdırmışdır. ların qiymətləri süni şəkildə bahalaşdırmağa çalışdığını deyən dövlət başçısı görülən tədbirlər nəticəsində çörəyin və unun qiymətinin əhəmiyyətli dərəcədə düşdüyünü bildirmişdir.

Struktur islahatları ilə bağlı artıq müəyyən addımların atıldığını deyən Prezi-

# Ölkədə iqtisadi fəallıq artacaq, əhalinin sosial müdafiəsi təmin ediləcək

Nazirlər Kabinetinin ötən iclasında verilən tapşırıqlar yerinə yetirildiyi təqdirdə Azərbaycanın çətinliklərdən asanlıqla çıxacağını deyən Prezident İlham Əliyev ölkədə islahatların dərinləşməsinin vacibliyini vurğulamış, bununla bağlı səslənən təkliflərin artıq icra olunmağa başladığını demişdir. İlk növbədə insanların sosial müdafiəsi ilə bağlı məsələlərin diqqət mərkəzində saxlanılacağını qeyd edən dövlət başçısı son illərdə ölkədə həyata keçirilən işlərin insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldiyini bildirmişdir. Bu yaxınlarda pensiya və əmək haqlarının 10 faiz qaldırılmasının bu istiqamətdə atılan önəmli addım olduğunu qeyd etmişdir.

Prezident İlham Əliyev çıxışında süni bahalaşmaya da münasibət bildirmiş, bu problemə qarşı ciddi mübarizə aparılmasının əhəmiyyətini vurğulamışdır. İşbazdent İlham Əliyev qeyd etmişdir ki, bu tədbirlər daimi olmalı, bir-birini təkrarlayan və lazımsız dövlət qurumları ya birləşdirilməli, ya da ləğv olunmalıdır. Valyuta bazarının tənzimlənməsi ilə bağlı müvafiq göstərişlərin verildiyini, təkliflərin hazırlandığını deyən prezident bu sahədə qanunvericilik bazasının möhkəmləndirilməsinin əhəmiyyətinə toxunmuş, Milli Məclisin növbədənkənar sessiyasında məsələyə baxılacağını bildirmişdir.

Dövlət başçısı manatın etimadının bərpası ilə bağlı ciddi tədbirlərin görülməsinin əhəmiyyətinə də toxunmuş, hazırda ölkədə müşahidə olunan dollarizasiya prosesinin heç bir iqtisadi əhəmiyyətinin olmadığını bildirmişdir. Manatın məzənnəsinin sabit saxlanmasının təkcə hökumətdən asılı olmadığını qeyd edən dövlət başçısı bank sektorunun tənzimlənməsi ilə bağlı təkliflərə baxıldığını, problemli bankların sağlamlaşdırılması prosesinin aparılması, dövlət istiqrazlarının buraxılması, əmanətlərin sığortalanması ilə bağlı əlavə tədbirlərin görülməsinin vacibliyini qeyd edərək, bu kimi tədbirlərin milli valyutaya olan inamı artıracağını bildirmişdir.

Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmizin xarici borcunun çox aşağı səviyyədə olması və mövcud vəziyyət nəzərə alınaraq xarici maliyyə bazarlarından lazımi qədər maliyyə resursları Azərbaycan bazarına cəlb edilə bilər. Qeyri-neft sektorunun inkişafının indiki vəziyyətdə prioritet olmasının vacibliyini bildirən dövlət başçısı Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə bu il 250 milyon manat güzəştli kreditlərin veriləcəyini, sahibkarların öz maliyyə resurslarını da nəzərə alaraq o zaman regionlara qoyulan investisiyanın həcminin təxminən 1 milyard manat olacağını bildirmişdir.

Prezident İlham Əliyev çıxışında daha bir vacib məsələyə toxunub, iş adamlarına böyük tikinti layihələrini icra etmək üçün şəraitin yaradılması, bu sahədə mövcud olan əsassız tələblərin, bürokratiya və korrupsiya hallarının aradan qaldırılması ilə bağlı ciddi tapşırıqlar vermişdir. Bununla yanaşı, dövlət başçısı ipoteka bazarının səmərəliliyinin artırılması, bu yolla inşa olunacaq binaların tikintisinin sürətləndirilməsi ilə bağlı təkliflərin hazırlanmasını tapşırmışdır.

Son 10 ildə Azərbaycanın dünyada ən sürətlə inkişaf edən ölkə olduğunu deyən Prezident İlham Əliyev bunu bütün beynəlxalq və maliyyə qurumlarının təsdiq etdiyini, cari ildə Azərbaycanda iqtisadi inkişafla bağlı heç bir problemin olmayacağına əminliyini ifadə etmişdir.

Hökumət üzvləri də müzakirələrdə çıxış etmişlər.

# Bütün şəhərlərdə əhaliyə 24 saat

## *"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfrans keçirilmişdir*




***Yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfrans keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.***

Dövlət başçısı bildirmişdir ki, 2015-ci ildə dünyada iqtisadi böhranın daha da dərinləşməsinə baxmayaraq, Azərbaycanda bir çox məsələlər uğurla həll olunmuşdur. Azərbaycanın beynəlxalq nüfuzunun artdığını vurğulayan Prezident İlham Əliyev ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu və bununla bağlı tədbirlərin icra edildiyini də diqqətə çatdırmışdır. Ötən il demokratik inkişaf istiqamətində önəmli addımların atıldığını, ölkəmizdə siyasi və iqtisadi islahatların demokratik inkişafla paralel aparıldığını vurğulayan dövlət başçısı parlament seçkilərinin şəffaf, ədalətli keçirildiyini və xalqın maraqlarını əks etdirdiyini bildirmişdir.

2015-ci ildə ölkədə iqtisadi inkişafın təmin olunduğunu söyləyən Azərbaycan Prezidenti qeyri-neft sənayesinin 8,4 faiz, kənd təsərrüfatının 6,6 faiz artdığını, enerji sektorunda, xüsusilə də "Cənub" qaz dəhlizinin icrası ilə bağlı mühüm addımların atıldığını diqqətə çatdırmışdır: *"Biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çeviririk. Artıq Asiyadan Avropaya və yaxud əksinə daşınan yüklər Azərbaycan ərazisindən keçir"*. Ötən il bütün sosial proqramların icra olunduğunu qeyd edən Prezident İlham Əliyev qarşıdakı dövrdə heç bir sosial layihənin ixtisar olunmayacağını bildirmişdir.

Dövlət başçısı manatın məzənnəsinin aşağı düşməsinin obyektiv səbəblərdən irəli gəldiyini bildirmiş, 2016-cı ilin ciddi iqtisadi islahatlar dövrü olacağını, artıq bununla bağlı müəyyən addımların atıldığını diqqətə çatdırmışdır. 2004-cü ildən regionların inkişafı ilə bağlı fəaliyyətdə olan dövlət proqramılarını tarixi hadisə adlandıran Prezident İlham Əliyev son 12 ildə 25 elektrik stansiyası tikildiyini, ölkə üzrə qazlaşdırmanın 90 faizə yaxınlaşdığını, bütün şəhərlərin "mavi yanacaq"la təmin olunduğunu bildirmişdir. Hesabat dövründə 10 min kilometrdən çox yol çəkilmiş, 3 min məktəb, 600-ə yaxın xəstəxana, 41 olimpiya mərkəzi tikilmişdir. Həyata keçirilən sosial siyasət tədbirləri nəticəsində maaşlar 5 dəfə, pensiyalar 7 dəfə artmış, məcburi köçkünlər üçün 225 min insanın yaşadığı 89 şəhərcik salınmışdır.

Prezident İlham Əliyev son illər ölkədə sahibkarlığın inkişafı ilə bağlı böyük işlərin görüldüyünü demişdir. Dövlət başçısı sosial müdafiənin yürüdülən siyasətin əsas istiqamətlərindən biri olduğunu, regionlarda nəzərdə tutulan infrastruktur layihələrinin, xüsusilə də kənd yollarının, məktəb və xəstəxana binalarının tikintisinin, içməli su layihələrinin icrasının əhəmiyyətini vurğulamışdır: *"İçməli su layihələri bir çox şəhərlərdə artıq icra edilib, 24 saat fasiləsiz təmiz, beynəlxalq standartlara, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Bu layihələr davam edir, davam edəcəkdir. Bütün şəhərlərdə əhaliyə 24 saat fasiləsiz, təmiz içməli su verilməlidir. Bununla bərabər, çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular yaradılmışdır. Yarım milyon insan bax o imkanlardan istifadə edir. Əvvəllər onlar çaylardan, kanallardan su içirdilər"*.

İqtisadiyyat naziri Şahin Mustafayev çıxış edərək 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ili çərçivəsində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışmışdır. Ş.Mustafayev 2015-ci ildə regionlarda infrastruktur layihələrinin icrası, xüsusilə yol-nəqliyyat, elektrik, qaz və su təchizatı infrastrukturunun yenilənməsi işlərinin davam etdirildiyini diqqətə çatdırmışdır: *"Su təchizatının yaxşılaşdırılması işləri davam etdirilib, əhalisi 175 min nəfər olan 4 şəhərdə su təchizatı layihəsi başa çatıb, regionlarda 750 kilometr su, 391 kilometr kanalizasiya xətti çəkilib, 125 minə yaxın əhalisi olan 58 yaşayış məntəqəsində modul tipli təmizləyici qurğular quraşdırılıb, əhalisi 630 min nəfərə yaxın olan 34 şəhər və rayonun 241 yaşayış məntəqəsində 300 subartezian quyusu qazılıb"*.

Sonra sahibkarlar çıxış edərək regionlarda biznesin inkişafına dövlət

# fasiləsiz, təmiz içməli su verilməlidir

dəstəyindən danışmış, həyata keçirilən islahatların bölgələrin inkişafında yeni mərhələnin başlanğıcı olacağını bəyan etmişlər.

Konfransın yekununda Prezident İlham Əliyev bildirmişdir ki, 2016-cı ildə həyata keçiriləcək islahatlar, şəffaflıq, məsuliyyət, qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsulların istehsalı, idxaldan asılılığın azaldılması dayanıqlı inkişafı təmin edəcəkdir.

Yerli istehsalın sürətləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bildirmişdir ki, dövlət qurumları və özəl sektorlar iş yerlərinin bağlandığı bölgələrdə bu məsələnin həllini diqqət mərkəzində saxlamalıdırlar. Ölkə əhalisinin artıq 9 milyon 700 min nəfərə çatdığını qeyd edən dövlət başçısı bu vəziyyətin yeni iş yerlərinin yaradılmasını tələb etdiyini diqqətə çatdırmışdır.

Son 12 ildə Azərbaycanda 70 mindən çox müəssisənin yaradıldığını deyən Prezident İlham Əliyev sahibkarları da yeni iş yerlərinin yaradılmasında fəal olmağa çağırmış, məşğulluq idarələrinə müraciət edənlərin işlə təmini üçün dövlət müəssisələrində yeni vakansiyaların açılması ilə bağlı tapşırıqlar vermiş, özəl sektorun da bu amili nəzərə almasının vacibliyini vurğulamışdır.

Prezident İlham Əliyev bildirmişdir ki, biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı məsələlər diqqət mərkəzində saxlanmalı, vergi və gömrük orqanlarının fəaliyyəti tam şəffaf olmalıdır.

Daxili bazarın, yerli istehsalın qorunması, inhisarçılığa yol verilməməsi ilə bağlı fikirlərini bildirən dövlət başçısı idxal qarşısında duran süni maneələrin aradan qaldırılması və qiymətlərin tənzimlənməsi ilə bağlı tapşırıqlar vermişdir.

Prezident İlham Əliyev investisiyaların təşviqi, ixracın stimullaşdırılması, geniş özəlləşdirmə proqramının icrası, bank sektorunun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin görülməsinin vacibliyini bildirmiş, bu il hər bir rayonda sənaye zonalarının yaradılmasına dair tapşırıq vermişdir.

Dövlət başçısı neft gəlirlərinin azalmasına baxmayaraq infrastruktur layihələrinin həyata keçiriləcəyini diqqətə çatdırmışdır: *"İçməli su layihələri də icra edilməlidir. Bu layihələr insanları içməli su ilə təmin edəcək və edir, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Biz içməli su layihələrinin icrasında da bu işləri daxili istehsalla təmin edirik. Son illər ərzində daxili istehsala verdiyimiz diqqət, qoyduğumuz sərmayə, bax, indi bu reallığı təmin edir. Əgər biz bunu etməsəydik indi idxaldan daha da çox asılı vəziyyətdə olacaqdıq.*

*Ona görə, infrastruktur layihələri icra edilməlidir. Bəziləri hesab edir ki, neftin qiymətinin 4 dəfə düşməsi ilə bağlı biz xərcləri daha da ixtisar etməliyik. Təbiidir ki, bu, belədir. Ancaq hesab edirəm ki, biz 2016-cı ildə infrastruktur və biznes layihələrini icra etməklə ölkəmizə daha da böyük dinamizm verə bilərik və biz bunu edəcəyik.*

*Son illər ərzində 1500-ə yaxın subartezian quyusu qazılmışdır. Keçən ilin sonunda bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan əlavə 10 milyon manat ayrılmışdır. Ola bilər ki, il ərzində əlavə vəsait ayrılacaq. Subartezian quyularının qazılması prosesi davam etdirilməlidir".*



Dövlət başçısı çıxışında ölkədə istehsal edilən ərzaq və qeyri-ərzaq məhsullarında mövcud olan xarici komponentlərin azaldılması, bu məhsulları və xammalı istehsal edən müəssisələrin yaradılması istiqamətində işlərin görülməsinin vacibliyi qeyd etmişdir. Kənd təsərrüfatının inkişafının, torpaq fondunun dəqiq uçotunun aparılmasının, meliorasiya tədbirlərinin gücləndirilməsinin, heyvandarlığın, bitkiçiliyin, xüsusilə də pambıqçılığın inkişafının diqqətdə saxlanmasının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev zəruri qida məhsullarına olan tələbatın ödənilməsi, bu məhsullarda idxaldan asılılığın aşağı salınması ilə bağlı fikirlərini bildirmişdir.

Qarşıda "Biz özümüzü 100 faiz taxılla təmin etməliyik" kimi öhdəlik müəyyənləşdirən Prezident İlham Əliyev turizmin inkişafı, ekoloji məsələlərin həlli, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ilə bağlı tədbirlərin sürətləndirilməsinin vacibliyini bildirmiş, dövlət qurumlarının və məmurların yerli məhsullardan imtina etmələrinin yolverilməz olduğunu vurğulamışdır.

Prezident İlham Əliyev Azərbaycanın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirmiş, müstəqillik yolunda xalqımıza uğurlar arzulamışdır.

# “Azərsu” ASC-nin 2015-ci il üzrə fəaliyyətinin



*Yanvarın 30-da “Azərsu” Açıq Səhmdar Cəmiyyətində 2015-ci ilin yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir.*

İclası giriş sözü ilə açan **“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov** bildirmişdir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində 2015-ci ildə Azərbaycanda dinamik inkişaf təmin olunmuşdur. Qlobal iqtisadi böhranın təsirlərinə baxmayaraq ölkəmizdə sosial və infrastruktur layihələrinin icrası davam etdirilmişdir. Ötən il içməli su təchizatı və kanalizasiya sektorunda da mühüm layihələr həyata keçirilmiş, istehlakçılara göstərilən xidmətlərin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır: ***“Dövlət başçısının əhalinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su il təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq 2015-ci ildə Bakı şəhəri və Abşeron yarımadasında, eləcə də respublikanın 29 şəhər və rayon mərkəzində və kəndlərdə layihələr icra edilmişdir. Hesabat ilində 4 şəhərdə yeni layihələrin icrasına başlanılmış, 2 şəhərdə isə yeni infrastrukturların istismara verilməsi ilə bağlı açılış mərasimləri keçirilmişdir. Ötən il Cəmiyyət üçün ən əlamətdar hadisə möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olmuşdur”.***

Səhmdar Cəmiyyətin sədri qeyd etmişdir ki, yeni kompleksin istismara verilməsi Abşeron yarımadasının içməli su təchizatında yeni mərhələnin başlanğıcıdır. Bu mənbə hesabına Türkan və Zirə qəsəbələrinə içməli suyun verilməsinə başlanılmış və sakinlər daha keyfiyyətli su ilə təmin olunur.

2015-ci ildə Kürdəxanı qəsəbəsində su təchizatı sistemlərinin yenidən qurulması layihəsinin icrası başa çatmış, Badamdar və Nardaran qəsəbələrində yeni layihələrin icrasına başlanılmışdır. Hesabat ilində 14 km-lik Bayıl-Bibiheybət-Lökbatan kanalizasiya tuneli tikilmiş, Lökbatan çirkab sutəmizləyici qurğular kompleksinin ərazisində yeni nasos stansiyası quraşdırılmışdır. I Avropa Oyunları ilə əlaqədar Böyükşor gölünün, Su idman sarayının ətrafında və digər ərazilərdə, həmçinin Mingəçevir şəhərində su və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması işləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq regionlarda yeni layihələr həyata keçirilmişdir. 2015-ci ildə Astara, Daşkəsən, Tərtər və Qobustan şəhərlərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin icrasına başlanılmışdır. Ucar şəhərində yeni su təchizatı, Göyçay şəhərində isə su təchizatı və kanalizasiya sistemləri istismara verilmişdir. Mingəçevir şəhərində yeni texnologiyaya əsaslanan və məhsuldarlığı sutkada 55 min kubmetr olan sutəmizləyici qurğunun inşası başa çatmışdır. Şəmkir şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 16,5 km uzunluğunda Şəmkirçay-Şəmkir magistral su kəməri tikilib istismara verilmişdir. Ötən il Kürdəmir, Ucar, Yevlax, Yardımlı, Zaqatala, Füzuli, Tovuz, Quba, Şəmkir, Şəki, Beyləqan rayonlarının 66 min nəfər sakini olan 29 kəndində içməli su təchizatı yaxşılaşdırılmışdır.

Təlim-Tədris Mərkəzinin, Suölçən Cihazların Sınağı və Kalibrlənməsi Laboratoriyasının fəaliyyətə başlaması, Mərkəzi Laboratoriyanın akkreditasiya sertifikatı alması ilin əlamətdar hadisələri kimi qeyd olunmuşdur.

Ötən il “Azərsu” ASC Böyük Britaniyanın Biwater və onun yerli tərəfdaşı Nobel Oil şirkətləri, eləcə də

# yekunlarına həsr olunmuş iclas keçirilmişdir

Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq sazişləri imzalamışdır. 2015-ci ildə Koreyada keçirilmiş VII Dünya Su Forumunda "Azərsu" ASC nümayəndə heyətinin iştirakı və Dünya Su Şurası İdarə Heyətinə üzvlük beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əlamətdar olmuşdur.

**"Azərsu" ASC sədrinin istismar üzrə müavini Köçərli Həsənov** bildirmişdir ki, hazırda respublika üzrə 16 min km su xətti istismar olunur. 2015-ci ildə "Azərsu" ASC tərəfindən 4,3 milyon nəfərə mərkəzləşdirilmiş qaydada içməli su və kanalizasiya xidməti göstərilmişdir. Görülmüş tədbirlər nəticəsində ölkə üzrə 200 min nəfərin içməli su təchizatı yaxşılaşdırılmış, 186 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunmuş, 102 min nəfərin su təchizatı fasiləsiz rejimə keçirilmişdir. Bununla da ölkə üzrə fasiləsiz rejimdə su ilə tə-





min olunan əhalinin xüsusi çəkisi 64,5 faizə, Bakı şəhəri üzrə 79,2 faizə yüksəlmişdir. Hesabat dövründə su və kanalizasiya şəbəkələrində baş vermiş qəzaların sayı əhəmiyyətli dərəcədə azalmışdır.

2015-ci ildə 73 nasos stansiyasının fəaliyyətinin dayandırılması nəticəsində 550 min kvt elektrik enerjisinə qənaət edilmişdir.

Kanalizasiya təsərrüfatında görülmüş işlər barədə hesabat verən K.Həsənov demişdir ki, hazırda respublikada 3216 km yağış və kanalizasiya şəbəkəsi mövcuddur. 2015-ci ildə formalaşan orta günlük tullantı suların həcmi 1 milyon 179 min kubmetr, Baki şəhəri üzrə 859 min kubmetr təşkil edir. Paytaxtda yaranan tullantı sularının təmizlənməsi üzrə xüsusi çəkisi hesabat dövründə 51 faizdən 61 faizə yüksəlmişdir.

Ötən il Azərsu" ASC-nin xidmət sahələri tərəfindən 629 km yağış və kanalizasiya xətləri, 21 min ədəd yağış və kanalizasiya quyuları, 8971 ədəd isə yağış barmaqlıqları müxtəlif çöküntülərdən təmizlənmiş, təmir-bərpa işləri aparılmışdır.

**"Azərsu" ASC sədrinin iqtisadi məsələlər üzrə müavini Mahir Məmmədov** çıxış edərək demişdir ki, ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edən dayanıqlı inkişaf hazırda aparıcı sahələrdən olan su təchizatı və kanalizasiya xidmətləri sektoruna da əhəmiyyətli təsir etmişdir. Bu sektorda genişmiqyaslı islahatlar və keyfiyyət dəyişiklikləri, məqsədyönlü investisiya proqramlarının icrası, iri həcmli kommunal infrastruktur layihələrin reallaşdırılması təmin olunmuşdur.

2015-ci ildə hesabat dövründə istehlakçılara 289 mln. kubmetr su satılmış, 192 mln kubmetr kanalizasiya xidməti göstərilmişdir. İstehlakçılara göstərilən su təchizatı və kanalizasiya xidmətləri üzrə yığım ötən illə müqayisədə 4,6 faiz artaraq 151,6 mln manat, yığım səviyyəsi 93,6 faiz təşkil etmişdir. Su təchizatı və kanalizasiya



xidmətləri üzrə gəlirlər ötən illə müqayisədə 2,1 faiz artaraq 137,7 mln manat təşkil etmişdir.

M.Məmmədov qeyd etmişdir ki, Səhmdar Cəmiyyətdə beynəlxalq standartların tətbiqi ilə bağlı işlər müvəffəqiyyətlə davam etdirilmişdir. 2015-ci ildə "Azərsu" ASC-nin 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə hesa-

batları hazırlanaraq, dünyanın nüfuzlu auditor şirkətlərindən hesab edilən və ““Ernst &Young” şirkəti tərəfindən audit edilmiş və maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektləri üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğunluğu barədə rəy alınmışdır .

Səhmdar Cəmiyyətdə 1 C proqram təminatının modullarının tətbiqi, o cümlədən istismara verilmiş modulların təkmilləşdirilməsi, tətbiq prosesində olan modullar üzrə isə işlərin yekunlaşdırılması istiqamətində işlər görülmüşdür.

**“Azərsu” ASC sədrinin tikinti üzrə müavini Seymur Seyidov** 2015-ci ildə həyata keçirilmiş inşaat işləri barədə məlumat vermişdir. O, bildir-



mişdir ki, hesabat dövründə 866 km su xətti, o cümlədən 204 km magistral su xətti, 284,8 km kanalizasiya xətti, o cümlədən 9,1 km tunel tipli kanalizasiya kollektoru, 35 ədəd su anbarı tikilmişdir. Bununla yanaşı, il ərzində 8 ədəd su, 4 ədəd kanalizasiya nasos stansiyası, 52400 ədəd smart sayğac quraşdırılmış, 6 subartezian quyusu qazılmışdır. Həyata keçirilən tikinti-quraşdırma işləri istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına müsbət təsir etmişdir.

S.Seyidov qeyd etmişdir ki, görülmüş işlərin davamı olaraq Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti tərəfindən tikinti-quraşdırma işlərinin layihələr üzrə mövcud vəsaitlər hesabına mərhələli şəkildə həyata keçirilməsi, gecikmələrin aradan qaldırılması, tikintisi yarımçıq qalmış obyektlər üzrə işlərin yekunlaşdırılması, tikintisi başa çatmış obyektlərin istismara təhvil verilməsi, öhdəliklər üzrə məsuliyyətin artırılması istiqamətində zəruri tədbirlər həyata keçiriləcəkdir.

**İnformasiya və kommunikasiya texnologiyaları departamentinin rəisi Emil Əhmədov** qeyd etmişdir ki, 2015-ci ildə “Azərsu” ASC-də informasiya və kommunikasiya texnologiyalarının beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi və modernləşdirilməsi, biznes proseslərinin avtomatlaşdırılması, yeni elektron xidmətlərin yaradılması, mövcud İKT infrastrukturunun dayanıqlığının və fasiləsiz fəaliyyətinin təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə Coğrafi İnformasiya Sisteminə 3236 km içməli su, 1157 km çirkab su və 40 km yağış su xətti, 191525 içməli və çirkab su infrastruktur elementləri, 50 ədəd anbar kompleksi və nasos stansiyası daxil edilmişdir. Rayon Sukanal idarələri tərəfindən sistemə 86236 qəza məlumatı daxil edilmişdir. Ötən dövrdə “Azərsu” ASC-nin Müştəri İnforma-



siya Sistemlərinin tətbiqi ilə əlaqədar inteqrasiya işləri həyata keçirilmiş, Cəmiyyətdə işə qəbul qaydalarının effektiv, şəffaf və obyektiv aparılması məqsədilə “Elektron imtahan” proqramı, kağız daşıyıcıları ilə sənəd dövriyyəsinin minimuma endirilməsi üçün “Elektron sənəd dövriyyəsi” proqramı hazırlanmışdır.

**Texnoloji proseslərə nəzarət və ekologiya şöbəsinin rəis müavini Zahid Qasımov** içməli su təchizatı və kanalizasiya sistemlərinin texnoloji proseslərinin tənzimlənməsi istiqamətində görülmüş işlər barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, hesabat dövründə “Azərsu” ASC-nin regionlarda daxil olmaqla balansında olan 690 məhəllə daxili anbarlardan 513-ü yuyulub təmizlənmiş və dezinfeksiya olunmuşdur. Emal olunmuş suların keyfiyyətinə nəzarət məqsədi ilə Mərkəzi laboratoriyada 13295 içməli su, 580 tullantı su nümunələrinin analizi aparılmışdır.



Z.Qasımov qeyd etmişdir ki, Ceyranbatan Ultrasüzgəcli Qurğular Kompleksinin istismara verilməsindən sonra Ceyranbatan-Zirə xətti boyunca suyun keyfiyyət göstəriciləri üzrə dinamikası öyrənilmişdir. Müəyyən edilmişdir ki, Zirə qəsəbəsinə kimi nəql olunan suyun bir çox keyfiyyət göstəriciləri dünya standartlarının tələblərindən bir neçə dəfə yüksəkdir.

Hesabat dövründə yaşıllaşdırma tədbirləri də diqqətdə saxlanılmış, xidməti ərazilərdə müxtəlif növlü 24150 ədəd ağac, 180982 ədəd mövsümi güllər əkilmiş və 2,72 hektar ərazidə qazon sahələri salınmışdır.

**Suraxanı rayon Sukanal İdarəsinin rəisi Əbülfəz Kərimzadə** 2015-ci ildə Suraxanı rayonunda istehlakçıla-

ra göstərilən su və kanalizasiya xidmətləri barədə məlumat vermişdir. İdarə rəisi, Suraxanı rayonunun timsalında rayon sukanal idarələri üçün səciyyəvi olan problemləri göstərmiş, nöqsanların aradan qaldırılması üçün zəruri olan tədbirlərdən danışmışdır.



dır. O, qeyd etmişdir ki, işə yanaşma prinsipləri dəyişməli, fəaliyyəti səmərəli müstəviyə daşıyacaq ideyalara üstünlük verilməlidir. Müştərilərə yüksək şəkildə xidmət göstərilməsi üçün Suraxanı Sukanal idarəsinin inzibati binasında qeydiyyat və gözləmə otaqları tikilmiş, xüsusi avadanlıqlar alınmış, təmir işləri görülmüşdür. Bununla da, müştərilərə operativlik və şəffaflıq baxımından daha keyfiyyətli xidmət göstərməyə münbit şərait yaranmışdır.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov iclasa yekun vuraraq, Cəmiyyətin 2015-ci il üzrə fəaliyyətini qənaətbəxş hesab etmiş, 2016-cı ildə görüləcək işlər və qarşıda duran vəzifələr barədə tapşırıqlarını vermişdir. Cari ildə Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlərin davam etdiriləcəyini deyən Səhmdar Cəmiyyətin sədri tikinti-quraşdırma işlərinin qısa müddətdə və keyfiyyətlə aparılmalı olduğunu diqqətə çatdırmışdır.

Səhmdar Cəmiyyətin sədri su itkilərinin azaldılması məqsədi ilə abunəçilərlə işin təkmilləşdirilməsi, içməli sudan qeyri-qanuni istifadə hallarının azaldılması, istismar, əməyin mühafizəsinin təşkili və ekologiya sahəsində tədbirlərin davam etdirilməsi barədə ciddi tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, rayon sukanal idarələrində müştəri informasiya sistemlərinin yaradılması müsbət nəticələr verir və bu sistemin tətbiqi digər rayonlarda da həyata keçiriləcəkdir.

"Azərsu" ASC-nin sədri idarə və müəssisələrin təsərrüfat-maliyyə göstəriciləri barədə ümumi məlumat vermiş, ayrı-ayrı sahələr üzrə irəliləyişlərə və nöqsanlara toxunmuşdur. İclasda fəaliyyətində nöqsanlara yol vermiş idarə və müəssisə rəhbərlərinə ciddi xəbərdarlıqlar edilmiş, enerji, material və nəqliyyat vasitələrindən səmərəli istifadə olunması, əmək məhsuldarlığının və təşəbbüskarlığın artırılması ilə bağlı göstərişlər verilmişdir.

Qeyd olunmuşdur ki, 2016-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışları, Dünya şahmat olimpiadası və digər beynəlxalq tədbirlərlə əlaqədar "Azərsu" ASC üzərinə düşən vəzifələrin icrasını təmin edəcək, turizm və iaşə obyektlərində içməli su və kanalizasiya sistemlərinin normal fəaliyyətinin təmin olunmasını diqqətdə saxlayacaqdır.

Səhmdar Cəmiyyətin sədri istehlakçıların içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədi ilə işlərin vaxtında və keyfiyyətlə aparılması üçün bütün tədbirlərin görüləcəyini diqqətə çatdırmışdır: ***"Əsas məqsədimiz istehlakçılara yüksək səviyyədə xidmət göstərmək, daha çox vətəndaşı keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etməkdir. 2016-cı ildə bu sahədə qarşımızda yeni vəzifələr dayanır. Ümid edirəm ki, su təsərrüfatı işçiləri əvvəlki illərdə olduğu kimi 2016-cı ildə də qarşıya qoyulmuş vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirərək daha böyük nailiyyətlər qazanacaqlar".***





*“20 yanvar - Ümumxalq hüzn günü” münasibəti ilə yanvarın 19-da “Azərsu” Açıq Səhmdar Cəmiyyətində anım mərasimi keçirilmişdir. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.*

# “20 yanvar - Ümumxalq hüzn günü” münasibətilə anım mərasimi keçirilmişdir



Mərasimdə çıxış edən **“Azərsu” ASC sədri Qorxmaz Hüseynov** bildirmişdir ki, 1990-cı ilin 20 yanvarı ən faciəli günlərdən biri olmaqla yanaşı, Azərbaycan tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, xalqımızın müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilmişdir. 26 il əvvəl xalqın azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xüsusi təyinatlı qoşun birləşmələrinin Bakıya yeridilməsi nəticəsində 147 mülki vətəndaş öldürülmüş, 700-dən çox insan yaralanmışdır. Həmin illərdə Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında yaradılan informasiya blokadasına baxmayaraq, ən çətin günlərdə də xalqla bir yerdə olan ümummilli lider Heydər Əliyev 20 yanvar faciəsi ilə bağlı cəsarətli mövqe nümayiş etdirmişdir: *“Ulu öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xarici jurnalistlər qarşısında çıxış etmiş, imperiya siyasətini, Mixail Qorbaçovun xalqımıza düşmən siyasətini qətiyyətlə ifşa etmişdir. Ümummilli liderin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi məsələsi həllini tapmış, 20 yanvar tarixi - Ümumxalq Hüzn Günü elan edilmişdir. 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsini həmişə uca tutan ümummilli lider onların adlarının əbədiləşdirilməsi, şəhidlərin ailə üzvlərinə maddi və mənəvi qayğı göstərilməsinə daim diqqətlə yanaşmışdır. Bu humanist siyasət bu gün Möhtərəm Prezident İlham Əliyev tərəfindən davam etdirilir”.*

Tədbirə dəvət olunmuş **tarixçi alim Yeganə Çağla** Sovet imperiyasının və erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi məkrli siyasəti tarixi faktlarla əsaslandırmış, 20 yanvar tarixini xalqımızın qəhrəmanlıq və şücaətinin simvolu kimi qiymətləndirmişdir: *“20 Yanvar hadisələri böyük bir geosiyasi prosesin başlanğıcı oldu. Bu bəşəri cinayətin törədilməsi SSRİ kimi bir imperiyanın çökməsini daha da yaxınlaşdırdı. Qanlı yanvar hadisələri sovet imperiyasının qəddar siyasətini təsdiq etməklə yanaşı, xalqımızın azadlıq əzmini, müstəqillik və dövlətçilik ideyalarına sıx bağlı olduğunu bir daha nümayiş etdirdi”.*

Anım mərasimində vaxtilə su təsərrüfatında çalışmış Cəbrayıl Xanməmmədovun faciə günü həlak olması, Xariz Alimov, İvan Proxorov, Kamil Həzrətquliyev, Təranə İmanova, Hüseyn Quliyevin yaralanması xatırlanmışdır.

Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Akif Məmmədov, şəhid Cəbrayıl Xanməmmədovun həyat yoldaşı Şövkət Xanməmmədova çıxış edərək şəhidlərimizin fədakarlığının gələcək nəsillər üçün qəhrəmanlıq nümunəsi olduğunu bildirmişlər. Tədbirdə qeyd olunmuşdur ki, 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı həyata keçirilmiş qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır.

# Gəncə şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi üzrə tender elan olunmuşdur

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədi ilə layihələrin icrasını davam etdirir. Almaniya İnkişaf Bankı (KFW ) ilə birgə maliyyələşdirilən"Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində reallaşdırılan layihənin növbəti mərhələsi üzrə tender elanı verilmişdir.***



Tenderə əsasən Gəncə şəhərinin mərkəzi hissəsində su təchizatı və kanalizasiya şəbəkəsinin eləcə də, kanalizasiya kollektorunun tikintisi nəzərdə tutur. Bu mərhələdə 15 km magistral, 136 km şəbəkə su xətləri çəkiləcək, tutumu 5000 kubmetr olan su anbarı inşa ediləcəkdir. Eyni zamanda Gəncə şəhərinin kanalizasiya sistemlərinin bir hissəsi də yenidən qurulacaqdır. Bu məqsədlə 108 km uzunluğunda kanalizasiya şəbəkəsi, 44 km uzunluğunda kanalizasiya kollektoru tikiləcəkdir.



Qeyd edək ki, Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasına 2011-ci ildə başlanılmışdır. Layihə Gəncə şəhəri ilə yanaşı, Göygöl rayonunun Murovdağ qəsəbəsi, Hacıməlik və Mollacəlilli kəndlərini əhatə edir və 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 450 min nəfərin su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır.

Layihənin icrasına başlanılandan ötən dövr ərzində Göygöl su mənbəyində yeni drenaj sistemi yaradılmış, tutumu 4000 kubmetr olan 1 ədəd su anbarı inşa edilmiş və su mənbəyindən anbaradək 24,5 km uzunluğunda magistral su xətti çəkilmişdir. Bundan başqa, Qızılqaya su mənbəyi bərpa edilmiş, ümumi həcmi 12 min kubmetr olan 3 ədəd yeni su anbarı və 9107 metr uzunluğunda anbarlararası xətt inşa edilmişdir. Gəncə şəhəri üzrə içməli su tələbatının böyük hissəsi Şəmkirçay su anbarından təmin ediləcək. Bu məqsədlə anbardan şəhərə 27,5 km uzunluğunda magistral su xətti çəkilmişdir.

Gəncə şəhərində inşası nəzərdə tutulan 855 km uzunluğunda şəhərdaxili su xətlərinin 66,4 km-lik hissəsi, 813 km uzunluğunda kanalizasiya şəbəkəsinin isə 69,4 km-lik hissəsi çəkilmişdir.

Şəhərdə yaranacaq tullantı suları Samux rayonu ərazisində gələcəkdə inşa ediləcək və məhsuldarlığı sutkada 2 ədəd 75 min kubmetr olacaq təmizləyici qurğuda zərərsizləşdiriləcəkdir. Qurğunun tikintisi isə layihənin növbəti mərhələsində həyata keçiriləcəkdir.

Hazırda 350 min nəfər əhalisi olan Gəncə şəhərində görüləcək işlər çərçivəsində 156 min nəfər mərkəzləşmiş qaydada içməli su alacaqdır. Əhalinin qalan hissəsi kəhriz və subartezianlardan istifadə edir və ya suyu maşınlarla alır. İçməli su şəhərin müxtəlif ərazilərinə qrafiklə verilir.



# AŞPA Sərsəng su anbarı barədə qətnamə qəbul etmişdir

*Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında "Azərbaycanın sərhəd rayonlarının sakinləri qəsdən sudan məhrum edilib" adlı qətnamə qəbul edilmişdir.*

Sənəddə qeyd olunur ki, içməli sudan maneəsiz istifadə hər bir dövlət üçün əsas hüquq, həyat mənbəyi və strateji əhəmiyyətə malikdir və sərhədlərin mövcudluğu bu istifadəni məhdudlaşdıra bilməz. Qəsdən sudan məhrumetmə günahsız vətəndaşlara zərər yetirmə vasitəsi kimi istifadə edilə bilməz. Qəsdən süni ətraf mühit böhranı yaratmaq "ekoloji təcavüz" kimi qəbul edilməlidir. Ekoloji fəlakət zonaları yaratmaq, əhalinin normal yaşamını çətinləşdirmək məqsədilə bir dövlətin digərinə qarşı düşmənçilik hərəkəti kimi qiymətləndirilməlidir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və digər ətraf ərazilərinin Ermənistan tərəfindən işğalı Azərbaycanın Aşağı Qarabağ bölgəsində yaşayan əhalisi üçün oxşar humanitar və ekoloji problemlər yaradır və AŞPA bunu pisləyir.

Məruzədə qeyd edilir ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazisində yerləşən Sərsəng su anbarında 20 ildən artıq dövr ərzində mütəmadi baxış işlərinin aparılmaması bütün ətraf ərazilər üçün təhlükə yaradır. Sərsəng su anbarının baxımsız vəziyyətdə qalması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana səbəb ola biləcək böyük fəlakətə gətirib çıxara bilər.

Bu vacib humanitar problem nəzərə alınaraq məruzədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması və bununla müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi, sutoplama dövründə Sərsəng su resurslarının istifadəsi və onların saxlanmasının beynəlxalq idarəçiliyi, suvarma kanalları, Sərsəng və Madaqiz su anbarlarının vəziyyəti, payız və qış mövsümündə su verilməsi cədvəli və su hövzələrinin həddən artıq istismarına beynəlxalq nəzarət tələb edilir. Qətnamədə Ermənistan hakimiyyətindən xüsusi olaraq su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırmaq tələb olunur.

Assambleya bu məsələ ilə bağlı hesabatın hazırlanması prosesində Ermənistan parlament nümayəndə heyəti və hakimiyyətinin əməkdaşlıq etməməsi faktını kəskin şəkildə pisləyir. AŞPA Ermənistanın bu kimi davranışının Avropa Şurasının tamhüquqlu üzvü kimi üzərinə götürdüyü öhdəliklərinə uyğun gəlmədiyini hesab edir, bu və parlamentarilərin səlahiyyəti dövründə yarana biləcək buna oxşar məsələlərdə atacağı addımları nəzərdən keçirir.

Məlumat üçün bildirək ki, Sərsəng su anbarı 1976-cı ildə Tərtər çayı üzərində tikilmişdir. Anbarın dəniz səviyyəsindən hündürlüyü 726 metr, ümumi su tutumu 565 mln kubmetr, bəndin hündürlüyü isə 125 metrdir. Sərsəng su anbarı bəndinin hündürlüyünə görə respublikanın ən yüksək su anbarlarından biridir. Anbar hazırda Tərtər rayonunun erməni işğalında olan (keçmiş Ağdərə rayonu) ərazisində qalmış və Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdur. Sərsəng su anbarı respublikanın 6 rayonunun- Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi.

Yalnız Sərsəng su anbarının işğalı nəticəsində kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna əvəz olunmaz zərər vurmuşdur. Hazırda su anbarına və onun qurğularına 20 ildən artıq müddətdir ki, texniki xidmət göstərilmədiyi üçün o qəza vəziyyətindədir.

